O, yaşca bizdən çox kiçikdir. Odur ki, yaxşı musiqiçi olsa da, zamanında deyil, onu xeyli sonralar tanımışam. Tanıdığım andan indiyə qədər onunla daim səmimi, xoş münasibətdəyik və yaxşı həmsöhbətik. Təbii ki, söhbətlərimiz, dialoqlarımız daha çox Azərbaycan qarmon sənəti və onun tədrisi ilə bağlı olur. Vüsal Süleyman oğlu Qəhrəmanov 1982-ci il iyunun 28-də Bakıda dünyaya gəlib. Ata sürücü, ana evdar qadın olub. Bu ailədə bir qız və bir oğul övladı böyüyüb.



# Əsl fədakar müəllimdir

*(Əvvəli ötən sayımızda)*

Onun pedaqoji fəaliyyəti ilə tanış olduqca adamı heyrət bürüyür və onun qarşısında baş əymək istəyirsən. Vüsal və müəllim yoldaşları dünyada ən gərəkli, çox lazımlı bir işlə məşğul olmaqla görün nə qədər adamları sevindirirlər. Sevinənlər sırasında uşaqlar özləri, ata-anaları, baba-nənələri, əmi-dayıları, bibi-xalaları və bir sözlə bütün doğmaları var. 38 saylı məktəbin bütün kollektivinə minnətdarlıq edərək onlara can sağlığı və böyük nailiyyətlər arzulayırıq.



İşlədiyi məktəbdə onun yetirmələri arasında müxtəlif baxış müsabiqələrdə və festivallarda çıxış edərək yüksək nailiyyətlər qazananlar var.

Məhəmməd Abışov belə tədbirlərdə çıxış edərək hər il qalib olub. Aşağıda mərhələlərlə göstəririk:

2013-cü il. Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində həyata keçirilən "Mən də varam" fərdi qabiliyyət müsabiqəsi. 1-ci yer;

2014-cü ildə Uşaq və Gənclər arasında xalq çalğı alətləri ifaçılarının III Respublika müsabiqəsində 3-cü dərəcəli diplom;

2015-ci ildə I Respublika festivalı. U.Hacıbəylinin milli lad sistemi gənc musiqiçilərin tədris repertuarında. Laureat;

2017-ci il. Moskvada keçirilən Beyməlxalq festival. Qalib.

Nurlan Əhmədov:

2015-ci il. Ü.Hacıbəylinin milli lad sistemi gənc musiqiçilərin tədris proqramında. Laureat;

Qara Qarayev adına "Təhlil və ifa edir gənc musiqiçilər". III Respublika elmi-ifaçılıq müsabiqəsi. Fərəhləndirici fərman;

2015-ci il. İstanbulda Gülənd çocuk festivalı. Qalib.

Nurlan Əhmədovun daha başqa müsabiqə və festivallarda yüksək nailiyətləri olub.

Azərbaycan Respublikasının ümummilli lideri H.Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində Mədəniyyət Nazirliyi, H.Əliyev Mərkəzi və Elm və Təhsil Nazirliyi ilə birgə təşkil etdiyi uşaq incəsənət festivalında 10-13 yaş qruplarında Azərbaycan xalq çalğı alətləri ifaçılığı nominasiyası üzrə I yerə layiq görülmüşdür.

Həmin illərdə bu festivallarda Abbas Əhmədov 6-9 yaş arasında I yer alıb. Vüsal müəllimin Cəmil Məmmədov və başqa şagirdləri də mühüm əhəmiyyətli nailiyyətlər əldə edərək sənət aləmi və tədris üçün yetişməkdədirlər.

Vüsal müəllimin zəhməti öz bəhrəsini verib. Məhəmməd Abışov ifaçı və musiqi müəllimi kimi yetişərək cəmiyyətdə öz yerini tutub. O, 2023-cü ildə AMK-nın xalq çalğı alətləri fakültəsini qarmon ixtisası üzrə bitirib. İxtisas müəllimi Ənvər Sadıqovdur. 2024-cü ildən Məhəmməd Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistraturasında xalq çalğı alətləri ifaçılığının nəzəriyyəsi və metodikası üzrə təhsil alır.

M.Abışov 2023-cü ildən 38 saylı 11 illik uşaq musiqi məktəbinin qarmon sinfində dərs deyərək müəllimi V.Qəhrəmanovla çiyin-çiyinə çalışır. Təbii ki, tədris məsələlərində nə çətinliyi olsa, ustadı ona dəstək olur.

2018-ci il fevralın 12-də Beynəlxalq Muğam Mərkəzində ustad qarmon ifaçısı Əhəd Əliyevin 125 illik yubiley tədbiri keçirildi. Orada mənim də çıxışım var idi. Həmin tədbirə Məhəmməd Abışovun ifası da daxil edilmişdi. Yaxşı xatırlayıram ki, Vüsal müəllim sevimli şagirdinin çıxışını tədbir üçün layiqincə hazırlamışdı. O, Məhəmmədin qarmonunu götürüb, onun qoluna girib məşqlərə və tədbirə gətirmişdi. Məhəmmədin səhnəyə qalxıb əyləşməsində, qarmonu dizi üstə almasında, səsgücləndirici aparatla tembrin düzəldilməsində də Vüsal müəllimin dəstəyi oldu. İfa bitəndən sonra Məhəmmədin qoluna girib səhnədən zala düşürülməsində də ustadının yardımı gözlərimiz önündə idi. Şagirdləri gözdən əlil olduqları üçün V.Qəhrəmanov onların zəhmətini çəkərək daim qayğı göstərir.

Həmin mədəniyyət müəssisəsində mahir qarmon ifaçısı Xanlar Cəfərovun xatirə gecəsi keçirildi. Vüsal müəllim Məhəmmədi bura da gətirib aparmışdı. Məhəmməd X.Cəfərovun bəstəsi olan "Xanları" rəqs melodiyasını xalq artisti Ənvər Sadıqovun "Qaytağı" instrumental ansamblının müşayiətilə əla ifa etdi.

2017-ci il iyunun 2-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Məhəmməd Abışovun uğurlu solo konserti keçirilib.

Bir xatirəni yazıya keçirməyi lazım bilirəm. 2019-cu il avqustum 5-də Abışovlar aləsinin həyatında əlamətdar gün idi. Maşallah Abışovun səliqəli, səhmanlı həyətində şadlıq mağarı qurulmuşdu. Məhəmmədin orta ümumtəhsil məktəbi bitirmsi və AMK-a qəbul olunması təntənəli şəkildə qeyd olunurdu. Qohumlar, qonşular dəvətli idi. Vüsal müəllim əvvəlcədən orada iştirakımı, məclisi idarə etməyimi istəmiş və mən məmnuniyyətlə razılıq vermişdim. Bir də xahiş etmişdi ki, Zakir Mirzə və Ənvər Sadıqovu da ora dəvət edim. Zakir müəllim üzrlü səbəbə görə gəlməsə də, Ənvər Sadıqov iştirak etdi. Vüsal başqa musiqiçiləri özü çağırmışdı ki, qonaqlıq daha urvatlı, təntənəli və zəngin repertuarlı olsun. Məni tədbirə Vüsal özü aparıb gətirdi. İfa üçün bir-bir bütün ifaçılara imkan yaratdım. Avtandil İsrafilov, Nemət Hüseynov, Şəmsi Ağamalıyev çox gözəl ifa sərgilədilər. Bunlardan sonra Şəmsi və Vüsalın duet ifası xüsusi marağa səbəb oldu. Sonda Məhəmmədin özünə də söz verdik. O, əla ifa göstərdi. Ziyafətdə mahir qarmon ifaçısı, memar, "İfan" şirkətinin direktoru, memar, mahir qarmonçalan İlqar Kərimov və Amerikanın Virciniya ştatında yaşayan qarmon sevdalı insan Hacı Həsən Musabəyli də iştirak edirdi.

Həmin tədbirin yüksək səviyyədə təşkilində və səviyyəli keçməsində V.Qəhrəmanovun böyük xidməti oldu. O, öz yetirməsi Məhəmmədin bu mənalı, uğurlu tarixi gününün daha fərəhli, sanballı olması, videoçəkiliş edilərək daim xatırlanması üçün əlindən gələni etmişdi. Onun vicdanlı, səmimi, zəhmətsevər, bacarıqlı təşkilatçı və canyandıran olması bir daha öz təsdiqini tapdı. Əlbəttə, hər müəllim öz tələbəsinin uğuruna bu qədər fərəhlənərək sevinc hissləri yaşamır.



İşin adına, görünüşünə deyil, mahiyyətinə baxarlar. Vüsal müəllim çalışdığı tədris müəssisəsinin adının da, bu məktəbin gördüyü işin mahiyyətini də, həm də öz məsuliyyətini də dərk edir, yaxşı anlayır və ortaya öz vicdani münasibətlərinin nəticəsini qoyur.

2015-ci ildən pandemiya dövrünə qədər V.Qəhrəmanovun instrumental ansamblı olub, konsertlərdə, bədii-kütləvi tədbirlərdə tanınan müğənniləri müşayiət edib. Onun qrupunda tam peşəkar və yüksək səviyyəli ifaçılar çalışıblar. Bu qrup Azərbaycanın sayseçmə müğənnilərini vətənimizdə, Türkiyə və Rusiya səfərlərində müşayiət edib. Vüsal 2017-ci ildə öz instrumental qrupu ilə Bakıdakı səsyazma studiyalarında da müğənnilərlə yaradıcılıq işlərində olub.

Vüsalın bir neçə solo ifası da var ki, həqiqətən zəngin əsər təsiri oyadır. Əlbəttə, bu istiqamətdə yaradıcılıq işlərini davam etdirsə əla olar. Lakin belə işlər maliyyə tələb edir. Allah özü kömək etsin.

Mən Vüsal müəllimi Qəhrəmanov deyil, Qəhrəman soyadı ilə tanımaq və belə tanıtmaq istərdim. Biri budur ki, SSRİ-dən qalan soyadlardakı "ov" sonluğundan uzaqlaşmaqdayıq. Digəri budur ki, axı onun xidmət etdiyi iş elə qəhrəmanlıqdır. Bəli, gözdən əlil uşaqların təhsil aldığı məktəbdə işləyib səviyyəli şagirdlərin hazırlanaraq, onların pedaqoji sahə və ifaçılıq sənəti üçün layiqli kadrlar kimi cəmiyyətə təqdim olunması yalnız fadakarlıq deyil, həm də əsl qəhrəmanlıqdır. Bəli, o, Vüsal Qəhrəmandır!

Yolumuz yoludur, yolu yolumuzdur, ifaçılıqda da, pedaqoji işdə də. Biz yaşlı sənətkarlar bu yolu sədaqətlə addmlayaraq pensiyaya çıxmışıq. Əsl yolçularımızdan biri olaraq Vüsal bəy bu yolu əzmlə, bacarıqla, hünərlə, məhsuldar şəkildə addımlamaqda və yüksək nailiyyətlərə imza atmaqdadır. Elə isə daim irəli, Vüsal Qəhrəman!

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru**